# USTA (TƏMİR-BƏRPA XİDMƏTİ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə qaydaları"
2. "Qaz təsərrüfatında texniki istismar qaydaları"
3. "Qaz təsərrüfatında texniki təhlükəsizlik qaydaları"
4. Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən təsdiq olunmuş "Azərbaycan neft sənayesində əməyin mühafizəsinin Vahid idarəetmə Sistemi"
5. Qaz xətlərinin sxemlərinin oxunması
6. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası, yanğın təhlükəsizliyi qayda və normaları

**1. Quyularda və təzyiq altında işləyən qablarda işə başlamazdan əvvəl mühitin qazlanması neçə yerdə və harada yoxlanılmalıdır?**
A) 3 yerdə, ağzında, ortasında və ən aşağı nöqtəsində
B) İstənilən 1 yerdə
C) Külək əsən istiqamətdə
D) Küləyin əksi istiqamətində
E) 2 yerdə üst hissədə

**2. Quyularda təmir işləri aparan briqadanın tərkibi minimum neçə nəfərdən ibarət olmalıdır və quyuda neçə nəfər işləyə bilər?**
A) 3 nəfərdən; 1 nəfər içəridə, 2-si çöldə - 1 quyudakına nəzarət, digəri kəndiri tutmalıdır.
B) 2 nəfərdən
C) 4 nəfərdən
D) Naryadda nə qədər göstərilibsə.
E) Cavabdeh şəxsin təyin etdiyi sayda.

**3. Qaz quyusunda işçi birdəfəlik maksimum neçə müddət işləyə bilər?**
A) Bir saatdan artıq olmaz.
B) Yarım saat.
C) 10-15 dəqiqədən artıq olmamaqla
D) Bir sutka ərzində.
E) 6 saat.

**4. Qaz quyularında hansı vaxtlar işləmək qadağandır?**
A) Gecə vaxtı
B) Yağış yağan zaman
C) Şimşək çaxan zaman
D) İş vaxtı qurtardıqdan sonra
E) Nahardan sonra

**5. Qaz kəmərlərində odlu işlər aparılan zaman kəmərdə təzyiq hansı səviyyədə saxlanılmalıdır?**
A) Yalnız aşağı təzyiqlə
B) 500 mm su sütunundan aşağı
C) Kəmərin işçi təzyiqi səviyyəsində
D) Kəmərin pasportuna uyğun
E) 60-80 mm su sütünü səviyyəsində

NÜMUNƏ

**6. Odlu işlərin yerinə yetirilməsi prosesində aparılan bütün qaynaq tikişləri hansı kateqoriyaya aid edilir?**
A) 1-ci kateqoriyaya
B) 4-cü kateqoriyaya
C) Super tikişlər kateqoriyasına
D) Zəmanətli qaynaq tikişləri kateğoriyasına
E) Lüks səviyyəli

**7.İstehlakçının qaz qurğusu dövlət standartlarının tələblərinə cavab vermədiyi halda qazın verilməsinin dayandırılması hansı qaydada həyata keçirilməlidir?**
A)Yazılı bildiriş göndərildikdən sonra
B)Alqı-satqı müqaviləsi ləğv olunduqdan sonra
C) 3 gün müddəti keçdikdən sonra
D) Nasazlıq aşkar edildiyi gün
E) Rejim-sazlama işləri başa çatdıqdan sonra

**8.Qazpaylayıcı şəbəkəyə qanunsuz qoşulma halları aşkar edildikdə, o, bu halda hansı işləri görməlidir?**
A)Dərhal hüquq mühafizə orqanlarına xəbər verməli və dəymiş zərərin ödənilməsini qanunvericiliyə uyğun olaraq həmin şəxsdən tələb etməlidir
B)Qanunsuz xəttin qoşulması faktının qeydə alınması ilə bağlı xüsusi akt tərtib edilməlidir
C)Qanunsuz xətti dərhal qazpaylayıcı şəbəkədən ayırmaqla qazın verilməsini dayandırmalı və dəymiş zərərin ödənilməsini qanunvericiliyə uyğun olaraq həmin şəxsdən tələb etməlidir
D)Qanunsuz xəttin təhlükəsizlik qaydalarına uyğunluğunun yoxlanılması üçün tədbirlər görməli və dəymiş zərərin ödənilməsini qanunvericiliyə uyğun olaraq həmin şəxsdən tələb etməlidir
E)Qazdan istifadəyə dair alqı-satqı müqaviləsinin ləğv etməli və belə hallara gələcəkdə bir daha yol verilməməsini həmin şəxsdən tələb etməlidir

NÜMUNƏ